Bataysk Tarix muzeyi

Vikipediya, azad ensiklopediya

Bataysk Tarix muzeyi — Rostov vilayəti Bataysk şəhəri ərazisində yerləşən tariz muzeyi. Muzeyin müasiy binası şəhərin mədəniyyət və istirahət parklarından birində Kirov küçəsi ev 51 ünvanında yerləşir.

Tarixi

Batayskda ilk tarix muzeyi 1966-cı ildə açılmışdı. Bu muzey yerli kinoteatrların birində yerləşirdi. İlk əvvəllər onun adı «*İnqilab, hərbi və əmək şöhrəti müzeyi*» olmuşdur. Muzey cəmi iki otaqda yerləşirdi. Onun 400 eksponatı var idi. Muzeyin müasir binası isə 1979-cu ildə inşa edilmişdir. Muzeyin açılışı isə elə həmin ilin 22 aprelində baş tutmuşdur[1].

Muzey müasir adını 1993-cü ildə almışdır. Hazırda onun eksponat sərgi zalının sahəsi 430 m² təşkil edir[2].

Muzeyin ekspozisiyası

Muzeyin əsas elspozisiyası eksponatlardan ibarətdir. Bu eksponatlar şəhətin tarixini əyani şəkildə nümayiş etdirir. Muzey fondunda tarixi eksponatların sayı 9 mindir[3].

Burada üç eksponat zalı vardır[4]:

- Döyüş Şöhrəti zalı — burada əsasən Rusiya vətəndaş müharibəsi və Böyük Vətən müharibəsi dövrünə aid eksponatlar saxlanılır. Burada müharibəfə həlak olmuş şəxsləri adları yazılmışdır. Bu zalda veteranlarla və araşdırma qrupları ilə görüşlər keçirilir.
- Diyarşunaslıq zalı
- Sərgi zalı

Epspozisiya[4]:

- Baranov və Serov adına təyyarəçilik uçilişi. Burada təhsil alan məşhur təyyarəçilər olmuşdur. Onlar arasında Aleksey Petroviç Maresevi belə göstərmək olar. Onun haqqında povestlər belə yazılmışdır.
- Bladimir Mixayloviç Komarov, Yevgeni Vasileviç Xrunov Viktor Vasileviç Qorbatko kimi təyyarəçi-kosmanaftların şəxsi əşyaları.
- Bataysk dəmir yolunnun tarixi. Buradan dəmir yolları 1875-ci ildə II Aleksandrın əmri ilə çəkilmişdir. Bu dəmir yolu qovşağı ən böyük qovşağa çevrilmişdir.
- Etnoqrafik eksponatlar. Xalqla əlaqəli və onların yaşayışını nümayiş etdirən eksponatlar: köhnə mebellər, əmək və məyişət alətləri, kilsə predmetləri.
- Daimi sərgi zalında isə batayskl rəssam Nikolay Serqeeviç Losevskinin çəkdiyi şəkillər sərgilənir.

İstinadlar

1. Administrator. "Городской музей истории города Батайска" (http://xn----7sbbaad2dcgd9csffhc5m.xn--p1ai/ucheregdenia-kulturi/5-muzei) (rus). xn----7sbbaad2dcgd9csffhc5m.xn--p1ai. İstifadə tarixi: 2017-01-21.
2. "ИСТОРИЯ ГОРОДСКОГО МУЗЕЯ" (http://xn--80aaabtlpdjm6djh.xn--p1ai/) (rus). xn--80aaabtlpdjm6djh.xn--p1ai. İstifadə tarixi: 2017-01-21.
3. "Батайский музей истории - Правительство Ростовской области" (http://www.donland.ru/Default.aspx?pageid=78179) (rus). www.donland.ru. İstifadə tarixi: 2017-01-21.
4. "Донской туризм :: Турист на Дону :: Музеи" (http://dontourism.ru/museums_view.aspx?id=8) (rus). dontourism.ru. İstifadə tarixi: 2017-01-21.

Mənbə — "https://az.wikipedia.org/w/index.php?title=Bataysk_Tarix_muzeyi&oldid=3853821"

Bu səhifə sonuncu dəfə 28 fevral 2017 tarixində, saat 03:49-də redaktə edilib.

Mətn Creative Commons Attribution-ShareAlike lisenziyası altındadır, bəzi hallarda əlavə şərtlər tətbiq oluna bilər. Ətraflı məlumat üçün istifadə şərtlərinə baxın.